UOT 373.3/5.

***Afət Bəkir qızı Bağırova***
*Bakı şəhəri 83 nömrəli məktəb-liseyin müəllimi*

# TƏLİMDƏ GERİ QALAN ŞAGİRDLƏRLƏ İŞ TƏCRÜBƏSİNDƏN

***Афет Бекир гызы Багирова***
*учитель школы-лицея № 83 гор. Баку*

# ИЗ ОПЫТА РАБОТЫ С УЧЕНИКАМИ, ОТСТАЮЩИМИ В ОБУЧЕНИИ

***Afet Bekir Bagirova***
*teacher school-lyceum № 83 of Baku city*

# FROM EXPERIENCE WITH DISCIPLES STAYING IN TEACHING

**Xülasə:** Məqalədə qeyd olunur ki, təlimdə geri qalmanın sosial səbəbləri ailə, məktəb və iqtisadi imkanlardan doğan səbəblərdir. Ailənin maddi sıxıntıları da uşağın inkişafına mənfi təsir göstərən faktorlardandır. Təlimdə geri qalmanın səbəbi məktəb, idarəetmə, müəllim, təlim texnologiyaları da ola bilər. Müəllimin yanlış davranışları, avtoritar yanaşması, yetərli biliyinin olmaması şagirdin uğursuzluğuna, dərsə qarşı biganəliyinə gətirib çıxara bilər. Müasir təlimdə bütün şagirdlər üçün bərabər imkanların yaradılması, təlimin diferensiasiyalaşdırılması, təlim formalarının və üsullarının şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq seçilməsi əsas istiqamətlərdəndir.
***Açar sözlər:*** *şagird, müəllim, təlim, texnologiyalar, müasir*

**Резюме:** В статье отмечается, что социальной причиной отставания учеников может быть семья, школа, также экономические возможности. Материальные трудности в семье также могут стать фактором, отрицательно влияющим на развитие ребенка. Причиной отставания в обучении может быть также школа, управление, учитель, технологии обучения. Авторитарный подход учителя, отсутствие достаточных знаний могут привести к неудачам ученика и равнодушию к уроку. Основным направлением современного обучения является - создание равных возможностей для всех учащихся дифференциация обучения и выбор форм и методов обучения с учетом особенностей учеников.
***Ключевые слова***: *ученик, учитель, обучение, технологии, современный*

**Summary:** The article notes that the social reason for the students' lagging behind can be a family, a school, and also economic opportunities. Material difficulties in the family can also become a factor that negatively affects the development of the child. The reason for the backlog in education can also be school, management, teacher, technology training. Authoritarian approach of the teacher, lack of sufficient knowledge can lead to student failures and indifference to the lesson. The main direction of modern education is the creation of equal opportunities for all students, the differentiation of education and the choice of forms and methods of instruction, taking into account the characteristics of students.
***Key words:*** *student, teacher, training, technology, modern*

Şagirdlərin intellektual böhranı uzun zamanlar psixoloqları və pedaqoqları düşündürmüşdür. Təlimdə geri qalmaq ümumi təhsilin bütün səviyyələrində müşahidə edilir. Bu hal həm uşağın özü, həm ailəsi, həm də ona məktəbdə təlim verənlər üçün narahatçılıq və problemlər yaradır. Çox zaman təlimdə geri qalmanın səbəbləri həmin uşaqlara təlim və tərbiyə verənlərə məlum olmur. Bu zaman məsələ daha da mürəkkəbləşir, çünki bu geriləmənin səbəbləri bilinmədən onun önlənməsi və aradan qaldırılması nəinki mümkün deyildir, həm də yanlış yanaşmalar, yanlış münasibətlər həmin şagirdlərə, onların psixologiyasına daha böyük zərbə vura bilər.

Pedaqoq professor doktor Norma Razon yazır: "İstər ailə, istər müəllim tərəfindən tənbəl damğasını yeyən uşaq əsasən danlanır, cəzalan-

dırılır, hətta döyülür. Tənbəllik olaraq adlandırılan bu məktəb uğursuzluğunun, biolojimi və ya ruhi səbəblərdənmi, duyğu üzvlərindəki bir qüsurdanmı, yoxsa uşağın ailəsi, müəllimi və ya məktəb yoldaşları ilə qurduğu qeyri-sağlam münasibətlərdənmi qaynaqlandığını araşdırmaq lazım olduğunu nadirən ağıllarına gəlir". O, "tənbəllik" adlandırılan təlimdə geriliyi əsas faktorlarını belə qeyd edir:

1. Zəka yetərsizliyi
2. Fiziki və ya fizioloji qüsur
3. Psixi və ya ruhi patalogiya
4. Təlim xətası və ya pedaqoji xəta
5. Ata-ananın davranışı
6. Müəllimin davranışı
7. Təlim texnologiyasının uşağa uyğun olmaması
8. Ailənin məktəb və təlimə verdiyi dəyər (Uşaqda motivasiya əskikliyi) (2).

Beləliklə, təlimdə yaşıdlarından geri qalmanın **fərdi** və **sosial** səbəbləri vardır deyə bilirik.

Fərdi uğursuzluq səbəbləri kimi zəka çatışmazlığı, fiziki və fizioloji qüsurları göstərmək olar. Öyrənmə sürəti yavaş olan belə uşaqlar ümumi məktəblərdə təhsil aldıqları normal şagirdlərdən geri qalırlar.

Məktəbəqədər və məktəb yaşlı uşaqlarda "minimal beyin disfunksiyası", yəni beynin yarımkürələrinin hər hansı hissəsində funksiyanın pozulması və onun inkişafının gecikməsi onların təlimdə geri qalmasına və müəllimlər üçün müəyyən çətinliklər yaranmasına səbəb olur. Beyin yarımkürəsinin bu və ya digər hissəsinin disfunksiyası və ya inkişafının ləngiməsi yazı vərdişinin (disqrafiya), oxumanın (disleksiya), hesablamanın (diskalkuliya) pozulması şəklində özünü göstərir. Bu pozğunluqlar bəzən ayrı-ayrılıqda, bəzən də əlaqəli şəkildə təzahür edir.

Valideynlərin və müəllimlərin, hətta məktəb psixoloqunun bu cür uşaqları müəyyənləşdirmək üçün bilgilərinin kifayət qədər olmaması onların təliminə və hətta şəxsiyyətinə səhv münasibət bəsləməyə gətirib çıxardır.

Uşaqların 20 faizə qədəri bu xəstəlikdən əziyyət çəkirlər. Biz məktəb təcrübəmizdə ənənəvi valideyn iclaslarında və ya valideynlərlə fərdi görüşlərdə ya belə uşaqların valideynlərinin ittiham olunduğunu ya da əksinə, şagirdin təlimdə geri qalmasında müəllimin valideyn tərəfindən günahkar bilindiyinin şahidi oluruq. Lakin problemin əsas səbəbini öyrənmək çox zaman ciddiyə alınmır. Məsələn, yarımçıq doğulma, doğuş zamanı və ya erkən yaşda olan kəllə-beyin travmaları, neyro infeksiyalar və s. bu xəstəliyin yaranmasına səbəb olur. Uşaqların erkən psixo-motor inkişafı, yaşa görə geri qalması, yəni gec oturması, gec yeriməsi, gec danışması, çox hərəkətli, hövsələsiz, diqqətsiz, tələskən və ya əksinə, çox sakit, az hərəkətli, tez yorulan olması, qamət pozğunluğu, əyri-pəncəlik, görmə zəyifliyi, baş ağrıları, kəkələmə, enurez, kiçik motorikanın geriliyi, yəni düymə bağlamaqda, ayaqqabı geyinməkdə, qayçıdan istifadə etməkdə çətinlik çəkməsi və sair hallar bu xəstəliyin əlamətləridir (3).

Kütləvi məktəbin proqramı onlar üçün çətinlik törədir. Onlar təlim materialının tempinə uyğunlaşa bilmirlər, köməksiz olurlar, məktəb həyatına və onları əhatə edən həyata uyğunlaşa bilmirlər, yaşıdları onlara pis münasibət bəsləyir, bu da onların psixikasına pis təsir edir, onlar hər dəqiqə özlərinin köməksiz və müdafiəsiz olduqlarını hiss edirlər (4).

Əqli geriliyə malik olan uşaqların harada – kütləvi ümumi məktəbdəmi, yardımçı məktəb və ya yardımçı sinifdəmi oxumasının mütəxəssislər tərəfindən düzgün təyin edilməsi onun gələcək həyat yolu və bir şəxsiyyət kimi formalaşması probleminin həll olunması üçün də mühüm şərtdir.

Əqli inkişafdan geri qalan uşaqlar kütləvi ümumtəhsil məktəblərində təlim almağa qadir deyildirlər. Onlar xüsusi tipli məktəblərdə təhsil alarlarsa, psixiatr, həkim və psixoloq nəzarəti altında məktəbə uyğunlaşa və inkişaf etdirilə bilirlər. Bu uşaqlara verilən təhsilin məqsədi onları canlandırmaq, təlimə, dərsə maraqlarını oyandırmaq, praktık bacarıq və vərdişlər aşılamaq və özlərini idarə edə biləcək sosial bir varlıq vəziyyətinə gətirməkdir.

Lakin beyinin üzvi zədəsinin nəticəsi olan əqli gerilik zamanı hərtərəfli (total) zədələnmə deyil, kompensasiya oluna bilən zədələnmələr də müşahidə edilir. "Çox vaxt pedaqoji baxımsızlıq nəticəsində əqli cəhətdən öz yaşıdlarından geri qalmış uşaqlara təsadüf edilir ki, onları əqli cəhətdən geri qalanlara aid edirlər. Lakin bu heç də düzgün deyildir. Çünki onlarda beyinin üzvi zədəsi yoxdur, sinir prosesləri normaldır. Sistematik və düzgün qurulmuş təlim nəticəsində onlar öz yaşıdlarına çata bilərlər. Həmçinin, anali-

zator sistemlərində kəsiri olan uşaqlar da əqli cəhətdən geri qalmış uşaqlara aid edilməməlidir (5, 92).

Uşaq gec öyrənən, ağır inkişaf edən şagirddirsə, müəllimlə valideynin işbirliyi şəraitində təlim və tərbiyə istiqamətlərinin müəyyən edilməsi, onu dəstəklənməsi, uşağa cəsarət və güvən verilməsi vacib şərtdir. Uğurlarına görə təqdir etmək, uğursuzluğuna görə isə danlamaq, tənqid etmək deyil, ona yardımçı olmaq lazımdır. Təcrübə göstərir ki, problemin vaxtında və sistemli şəkildə həll edilməsinin gecikdirilməsi nəticəsində belə uşaqlar öz talelerilə bağlı bu məsələyə laqeydlik göstərir, bunu müzakirə etməkdən belə çəkinirlər.

Təlimdə geri qalan şagirdlərlə keçirdiyimiz anket sorğuların nəticələri də bunu göstərir. “Sizcə təlimdə geri qalmağınızın səbəbi nədir?” sualına onların bir neçəsi belə cavab vermişdir: *“dərsi başa düşmədiyim üçün”, “tənbələm”, “hazırlığa gedirəm”, “dərslər ağırdır”,”başım ağrayır”, “tapşırıqlar çox olur”,”oxuyuram, ancaq yadımdan çıxır”,”oxumaq həvəsim yoxdur”, “çatdırmaq olmur”, “marağım yoxdur”, ”müəllimlər daha çox məşğul olmalıdır”,* ***dərs vaxtının az olması,”*** *enerji olmur”,”axada oturanlar qabağa, qabağda oturanlar isə arxaya keçsin”, “əsas fənndən artıq dərs oxumuram”,”maraqlı dərs yoxdur” və s.*

Təlimdə geri qalmanın sosial səbəbləri **ailə**, **məktəb** və **iqtisadi imkanlardan doğan** səbəblərdir.

Ailədən qaynaqlanan ruhi narahatlıqlar uşağın bir yaxınını itirməsi, ailə üzvlərinin xəstələnməsi, ata və ya anasından uzun zaman ayrı qalması, ata və anasının ayrılması, yeni bacı, qardaşının doğulması, qorxu hissi yetkinlik problemləri və s. ilə əlaqədar ola bilər. Bu durumda ailə, müəllim, həkim və psixoloqun işbirliyi ilə uşaq ruhi sağlamlığına qovuşa bilər. Ailəiçi münasibətlərin normal səviyyədə olduğu sağlam ailə mühitində uşaqda güvən hissi formalaşır. Ata-anasından yetərincə qayğı və sevgi görməyən uşaqlarda bacarıqsızlıq, uğursuzluq, təlimdə geri qalma meydana çıxır. Bəzən uşaqların istedadları belə ailə mühitində parlamadan sönür. Övladının uğurları ilə maraqlanmayan, və ya dərslərində geriləmələr üçün irad tutmayan, ona yardım etməyın, yol göstərməyən valideyn şagird uğursuzluğunun qaynaqlarından biridir.

Başqa halda isə, uşağın hər istəyinə əməl edilir, ona etdiyi hərəkərlərin doğru-yanlışı göstərilmir, uşaq ailə intizamından kənarda formalaşır və ya o qədər konfort işində böyüyür ki, hətta ehtiyacı olmadığı hər şeyə sahibdir. Evdən kənar mühit onu qane etmir, əmək sərf edərək qazanmaq anlayışı ona yaddır. O, məktəbi və müəllimləri sevmir, əyləncələrə can atır. Belə şagirdlərin dilindən “məktəb bizi bezdirdi”, “bircə məktəb qurtarsaydı” kimi ifadələr, müəllimlərə yönəlmiş xoşagəlməz sözlər eşitmək olur.

Bununla belə, ata-ananın həddən artıq sərt rəftarı, şiddət yolu ilə intizam yaratmaq cəhdi, uşağını hər fürsətdə danlaması, döyməsi çox yanlış davranışdır. Belə şəraitdə yetişdirilən uşaq məktəbdən, müəllimlərdən və yoldaşlarından soyuyur. Ailədə uşagın düşüncələrinə və söz haqqına hörmətlə yanaşılmalı, ona sevinc və güvən duyğusu aşılanmalıdır.

Yetkinlik yaşına çatmış gənclərdə də həmin yaş dövrünün xüsusiyyətləri ilə bağlı emosional gərginlikləri, içinə qapanması, bununla da akademik uğursuzluqları meydana çıxır.

Ailənin maddi sıxıntıları da uşağın inkişafına mənfi təsir göstərən faktorlardandır.

Təlimdə geri qalmanın səbəbi **məktəb**: idarəetmə, müəllim, təlim texnologiyaları da ola bilər. Müəllimin yanlış davranışları, avtoritar yanaşması, yetərli biliyinin olmaması, peşəsinin şərəfini dərk etməməsi də şagirdin uğursuzluğuna, dərsə qarşı biganəliyinə gətirib çıxara bilər.

“Təlimdə irəliləmənizə nə kömək edə bilər?” anket sorğusunu şagirdlər belə cavablandırmışlar: *“dərsi yaxşı dinləməliyik”, ”dərsə vaxtlı-vaxtında gəlməliyik”, “dərsdə fəal olmaq lazımdır”, “dərs vaxtları azaldılmalıdır”, ”həftədə 3 gün dərs olmalıdır”, ”material az olmalıdır”, ”dərs vaxtı az olduqda rahat şəkildə, həvəslə oxumaq olar, çünki dərs vaxtı material çox olanda insanda həvəs qalmır, yorulur və oxumur”, “ixtisası olmayan fənləri keçməmək”, ”hissə-hissə öyrənmək”, ”bəzi dərsləri azaltmaq” və s.*

Dərs proqramının həddindən artıq yüklü olması ən böyük pedaqoji xətalardandır. Önəmli olan şagirdin başını nəzəri məlumatlarla doldurmaq deyil, onu inkişaf etdirmək, aldığı biliklərdən yararlana bilməsinə nail olmaq, biliyi müs-

təqil şəkildə əldə etmək bacarığı aşılamaqdır. Bəzən şagirdin idrakı sinif səviyyəsindən aşağı olduğundan dərs proqramını mənimsəməkdə yoldaşları ilə ayaqlaşa bilmir, bəzənsə, əksinə, sinfin ümumi səviyyəsinin üstündə olduğundan ona dərs proqramı çox asan gəlir, əmək sərf etmədən öyrənməyə alışır və bu durum ona maraqsız gəlir, beləliklə, passivləşməyə başlayır.

Təlimin fərdiləşdirilməsi prinsipinə əməl edilməməsi, şagirdin fərdi xüsusiyyətlərinin nəzərə alınmaması uğursuzluğun başlıca səbəblərindəndir. Sinifdə çətin öyrənənlər, istedadlı şagirdlər və eyni zamanda orta səviyyədə qavrayan və çalışan şagirdlər olur. Tədris proqramlarının orta səviyyəli şagirdlərə hesablanması istedadlı şagirdləri passivləşdirməklə bərabər zəif oxuyan şagirdləri də tənbəlliyə sövq edir.

Ənənəvi didaktik sistemdə şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması deklorativ xarakter daşıyırdı, ilk növbədə ona görə ki təlim prosesi əslində "orta şagird" anlamına söykənirdi. 70-ci illərin əvvəllərində V.A. Krutetski bu mənzərəni belə təsvir edirdi: "Sinif inkişafı və hazırlıq dərəcəsi eyni olmayan, mənimsəmə səviyyəsi və təlimə münasibəti seçimli olan, müxtəlif maraqlı şagirdlərdən ibarətdir. Təlimin ənənəvi təşkili zamanı müəllim eyni vaxtda onların hamısının səviyyəsini bərabərləşə bilməz". Belə bir mifik "orta şagird" kontekstində "güclü" şagirdlər süni şəkildə inkişafdan qalır, "zəif" şagirdlər isə geri qalmağa məhkum olurlar *(6).*

Bu səbəbdəndir ki, müasir təlimdə bütün şagirdlər üçün bərabər imkanların yaradılması, təlimin diferensiasiyalaşdırılması, təlim formalarının və üsullarının şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq seçilməsi əsas istiqamətlərdəndir.

Şagirdlərin öyrənilməsi, onların sistemli psixoloji monitorinqi isə təlimin fərdiləşməsinin və diferensiasiyasının əsas şərtlərindən biri sayılır. Təlimin fərdiləşməsi və diferensiasiyası problemi nəzəri-metodoloji (strateji) səviyyədə nisbətən ətraflı öyrənilib, taktiki baxımdan isə bu sahədə hələ araşdırılmamış məsələlər var.

Psixologiya və pedaqogikada onun əhəmiyyəti hələ 30-cu illərdə dərk olunmuşdur. Fransız psixologiyası və pedaqogikasında fərdiləşmə, Almaniyada isə təlimin diferensiasiyası anlamı əmələ gəlmişdi. Bu anlamlar yaşarı oldu və qabaqcıl müəllimlərin iş təcrübəsinə vüsətlə nüfuz etdi. Müasir şəraitdə fərdi yanaşma elə bu yolla – təlimin fərdiləşdirilməsi və diferensiasiyası yolu ilə həyata keçirilir. Onların özünəməxsus simbiozu əsasında isə qrupla iş metodikası əmələ gəlib *(7).*

Fərdiləşdirmə üçün müəllim müxtəlif səviyyəli şagirdləri nəzərə alaraq proqramı zənginləşdirməlidir. Qavrama səviyyəsi yüksək olan şagirdə çətin tapşırıqlar verərkən təlimdə geri qalanlara da xətər yetirilməməlidir. Məsələn, təlimdə geri qalan şagirdə müəllim daha çox praktik tapşırıqlar verə bilər. *Məsələn, tədris etdiyimiz biologiya fənnindən dərslər zamanı müşahidə edirik ki, praktik vərdişlərin aşılanması (mikroskop altında izləmə, təzyiqin ölçülməsi, elektron vasitələrdən istifadə, canlılar üzərində müşahidə xarakterli iş və s.) zamanı sinifdə zəif təlim göstəriciləri olan şagirdlər öz aktivlikləri ilə diqqəti cəlb edirlər.*

Səviyyələrin nəzərə alınması qiymətləndirmə standartlarında və mexanizmlərində də nəzərə alınır.

Səriştəyə əsaslanan təhsildə önəmli olan şagirdin fundamental nəzəri biliklərə yiyələnməsi deyil, öyrəndiklərindən yararlanmaq, onu tətbiq etmək bacarıqlarına yiyələnməkdir. Bu prinsip imkan verir ki, dərsdə şagirdlərə fərqli və fərdi yanaşılaraq onlara intellektual imkanlarına uyğun tapşırıqlar verilsin.

Tədris prosesində interaktiv lövhə və virtual laborator proqramlarından istifadə edilməsi dərsin əsas prinsiplərindən birini, onun əyaniliyini təmin edir. Belə imkanlar müxtəlif səbəbdən dərsləri buraxan və ya təlimdən geri qalan şagirdlər üçün xüsusi əhəmiyyətə malikdir. Belə ki, şagird iştirak edə bilmədiyi, dərs prosesində tam aydın olmadıqda və ya təlimdən geri qalanlar həmin materialı tam qavrayana kimi təkrar-təkrar kompüterdə izləyə bilərlər. Elektron tədrisdə şagirdlərin hamısı lövhəyə çıxıb müəllimin bütün tapşırıqlarını yerinə yetirməkdə həvəsli olurlar. İnteraktiv rejimdə keçilən (tədris olunan) dərslər bütün şagirdlər, o cümlədən passiv, utancaq, müəyyən fiziki və ya psixoloji qüsuru olanların dərs prosesinə aktiv qoşulmasına şərait yaradır (8).

İnteraktiv rejimdə keçilən dərslər bütün uşaqların, o cümlədən passiv, utancaq, müəyyən fiziki və ya psixoloji qüsuru olan şagirdlərin dərs prosesinə aktiv qoşulmasına şərait yaradır.

Bəzən olur ki, adi dərslərdə suala səhv cavab verən şagird digər uşaqların yanında müəllimin ona etdiyi məzəmmətə ağrılı reaksiya verir və sıxıntı hissləri keçirir. İnteraktiv rejimdə isə müəllim şagirdin etdiyi səhvləri bütün sinifə deyil, onun özünə fərdi qaydada göstərməklə səhvlərin nədən ibarət olduğunu və onları necə düzəltməyi çox aydın başa sala bilər. Belə tədris uşağın özünə inamını artırmaqla bərabər, həm də onda olan psixoloji maneələri aradan qaldırar.

Təlimdə geri qalan şagirdlərlə iş üçün dərslərlə yanaşı, digər formalardan da istifadə olunur. *Əlavə məşğələlər* geridə qalan, eləcə də yaxşı oxuyan şagirdlərlə dərsdənkənar aparılan iş formalarındandır. 15-20 dəqiqə vaxt ərzində keçirilən bu məşğələlərdə zəif oxuyan şagirdlərin çətinlik çəkdiyi məsələlər üzrə fərdi tapşırıqlar yerinə yetirilir, çalışqan şagirdlər isə maraq və qabiliyyətlərini ödəyən yaradıcı tapşırıqlar üzərində işləyirlər. Belə məşğələlərə rəhbərlik işinə əlaçı şagirdləri və tələbələri də cəlb etmək olar.

Şagirdin təhsildə geri qalması təkcə fərdin, ailənin, məktəbin deyil, bütövlükdə cəmiyyətin problemidir. Çünki bu intellektual böhranın səbəbləri çoxcəhətli və müxtəlif istiqamətlidir. Cəmiyyətdə iqtisadi və sosial, ekoloji, tibbi problemlər, düzgün qurulmamış ailədaxili münasibətlər, pedaqoji xətalar, düzgün olmayan psixoloji mühit və s. bu problemin qaynaqlarıdır. Məhz bu səbəbdən problemin həllində dövlət, məktəb, ailə və cəmiyyət birgə fəaliyyət göstərməlidir.

**Problemin aktuallığı.** Məqalədə irəli sürülən təkliflər və nəticələr tədris prosesində geri qalan şagirdlərlə işin tənzimlənməsinə şərait yaradacaqdır.

**Problemin praktik əhəmiyyəti.** Tədris prosesində interaktiv lövhə və virtual laborator proqramlarından istifadə edilməsi dərsin əsas prinsiplərindən birini, onun əyaniliyini təmin edir.

**Problemin elmi yeniliyi.** Məktəbin üzərinə düşən vəzifə geri qalan şagirdlərlə işi səmərəli şəkildə qurmaq, öncə şagirdlərin təlimdə geri qalmasının səbəblərini fərdi olaraq aşkara çıxarmaq, sonra həmin şagirdlərlə işin istiqamətlərini müəyyən etməkdir. Bu məsələdə valideyn-məktəb əlaqələrinin möhkəmliyi mühüm şərtdir və daim diqqət mərkəzində saxlanmalıdır.

## Ədəbiyyat:

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. http://www.ekipnormarazon.com/makale-detay/tembel-cocuk
3. http://aztehsil.com/psixoloq/848-mktbqdr-v-mktb-yal-uaqlarda-minimal-beyin- disfunksiyas-yni-beynin-yarmkrlrinin-hr-hans-hisssind-funksiyann-pozulmas.html
4. http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Sosial%20%202014%20%202/10% 20%20%20%D0%90.%C6%8F.%D0%9C%C6%8FMM%C6%8FDOVA.pdf.
5. Məmmədova A.Ə. Pedaqogika: Əqli və fiziki inkişafdan geri qalan uşaqların yardımçı məktəbə seçilməsi qaydaları. Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2014.
6. http://www.tehsilproblemleri.com/?p=18387
7. Alişov Mönsüm. İnformasiya-kommunikasiya texnologiyalarının təhsilin keyfiyyətinə təsiri http: //www.xalqqazet i.com/az/news/education/56412
8. http://anl.az/down/meqale/rabitadunyasi/2010/dekabr/150294.htm

E-mail: afet.qasimova.1969@mail.ru

**Rəyçi:** *ped.ü.fəl.dok., dos* A.X. Hacıyev

**Redaksiyaya daxil olub: 24.04.2018**